Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



Nüsrət Kəsəmənlinin 70-illik yubileyi münasibəti ilə hazırlanmış metodik vəsait

# Sözləri nəğməyə çevrilən şair - Nüsrət Kəsəmənli

**Bakı-2016**

Tərtibçi: Aynurə Əliyeva
Sevil Əhmədova

Redaktor və
buraxılışa məsul: Şəhla Qəmbərova
Əməkdar Mədəniyyət işçisi

**Sözləri nəğməyə çevrilən şair - Nüsrət Kəsəmənli**:N. Kəsəmənlinin 70 illik yubileyi münasibəti ilə uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait. F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- 29s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016**

Tərtibçi.

Azərbaycan poeziyasının tarixində məhəbbət mövzusunda yazmayan bir şair təsəvvür eləmək çətindir. "Eşqdir mehrabı uca göylərin, Eşqsiz, ey dünya, nədir dəyərin" deyən Nizamidən, "Eşqdir hər nə var aləmdə, Elm bir qeylü-qal imiş ancaq" nəticəsinə gələn Füzulidən, "Gecə-gündüz mən didarə aşiqəm" söyləyən Vaqifdən sonrakı Azərbaycan şairləri də sonsuz bir ehtirasla məhəbbətdən yazmağı davam etdirmişlər. Lakin əvvəlki dövrlərdən fərqli olaraq müasir dövrdə hansısa böyük sənətkarı ümumiyyətlə "məhəbbət şairi" adlandırmaq o qədər də asan deyil... Nüsrət Kəsəmənli haqqında isə cəsarətlə demək olar ki, o, Azərbaycanın ən böyuk məhəbbət şairlərindən biridir. Sənətkar üçün bundan böyük xoşbəxtlik təsəvvür eləmək çətindir ki, hələ sağlığında səni duysunlar, yaratdığın obrazlar həyatda kimlərinsə təqlid obyektinə çevrilsin. Və şair üçün bu da böyük bir uğurdur ki, sənin şeirlərinin ideya-estelik təzyiqi ilə sənin dövrünün onlarla gözəl məhəbbət nəğmələri yaransın. Zaman Nüsrət Kəsəmənliyə qarşı haqsızlıq etdi həqiqətən. Onun yaradıcılığının çiçəkləndiyi, fəlsəfiləşdiyi bir dövrdə ölüm karvanına qoşuldu şair. Nəğməli şairimiz Nüsrət Kəsəmənli vaxtsız əbədiyyətə qovuşdu. Şair hal-hazırda paytaxtımızın Fəxri Xiyabanında uyuyur. Səsi-sədasi qatarından ayrı düşmüş durna...qəlbi-ruhu isə qərib, ağlar bənövşə kimi.

Yum gözünü, çən görmə,
Vaxtsiz gələn qəm görmə,
Dünya yaman qarışıb
Mən görəni sən görmə;
Yumul, bənövşəm, yumul!..

Nüsrət Kəsəmənli yaşasaydı onun 70 yaşını salon dolusu pərəstişkarları ilə qeyd edəcəkdik. Indi bu ad gününü təəssüflər olsun ki, onsuz qeyd edirik... Nüsrət Kəsəmənlinin 70 illik yubileyi münasibətlə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə "Ömürdən bir gün də keçdi, beləcə" adlanır və N. Kəsəmənlinin həyat və yaradıcılığından bəhs edir. II hissədə isə N. Kəsəmənlinin yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## *Ömürdən bir gün də keçdi, beləcə*

Nüsrət Yusif oğlu (Əyyubov) Kəsəmənli 1946-cı ilin dekabr ayının 29-da Qazax rayonunun Kalininkənd kəndində anadan olmuşdur. Kirovka kənd orta məktəbini bitirdikdən sonra əvvəlcə Mədəniyyət və İncəsənət Universitetinin rejisssorluq, sonra isə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) jurnalistika fakültəsinə daxil olmuşdur. Universitetin ikinci kursunda ikən "Bakı" və "Baku" axşam qəzetlərində çalışmışdır. Nüsrətin istedadlı gənc olduğunu ilk dəfə duyan müəllimi Nəsir İmanquliyev olmuşdur. Nəsir İmanquliyev Nüsrət Kəsəmənlini baş redaktoru olduğu qəzetdə işə götürərək onun ədəbi yaradıcılığına şərait

yaratmışdır. Şairin ömür-gün yoldaşı Rəhilə Kəsəmənli söyləyir: "Nüsrət həqiqətən qeyri-adi xarakterə malik, sözlə nəfəs alan, sözlə təskinlik tapan bir insan idi". Nüsrət Kəsəmənli Azərbaycan Yazıçılar İttifaqında, "Azərbaycanfilm" kinostudiyasında çalıışıb. Ömrünün son illərində isə "Yazıçı" Mədəni və İqtisadi Əlaqələr Şirkətinin prezidenti vəzifəsində işləmişdir. Bədii yaradıcılığa ötən əsrin 60-cı illərində başlayan şairin ilk kitabı-"Sevirsənsə" 1971-ci ildə "Gənclik" nəşriyyatında çapdan çıxmışdır. Sonralar "Gözlərimin qarası", "Özümə bənzədiyim günlər", "Gümüş yuxular", "Təklikdə danışaq" kitabları işıq üzü görmüşdür. Onun şeirlərinə 150-dən artıq mahnı bəstələnmişdir. Nüsrət Kəsəmənli bir neçə bədii və sənədli filmin ssenari müəllifidir. Şair bədii istedadı ilə yanaşı, ədəbi aləmdə içtimai fəallığı ilə də seçilirdi. O, dəfələrlə ölkəmizdən kənarda müxtəlif konfrans, müşavirə və s. ədəbi tədbirlərlə ölkəmizi təmsil etmişdir. Şeirləri bir çox xarici dilə tərcümə olunmuşdur. Onun "Gümüş yuxular" kitabı sovet dövründə respublika komsomolu mükafatına layiq görülmüşdür. O, bir neçə festivalın, müsabiqənin qalibi olmuşdur. Müdafiə Nazirliyinin, Milli yaradıcılıq Akademiyasının mükafatlarını almışdır. Əslində ömür vəfa etmədi. Nüsrət Kəsəmənlinin yazacağı əsərlər də çox idi, alacağı mükafatlar da, fəxri adlar da. Onu qarşıda nələr gözləmirdi? Tanınmış şair, istedadlı qələm əhli, səmimi şəxsiyyət Nüsrət Kəsəmənlinin işıqlı xatirəsi qəlbimizdə yaşayacaqdır. Nüsrət Kəsəmənlinin 70-illik yubileyi münasibəti ilə kitabxanada bir neçə tədbirlər; kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Şairi

sevdirmək, yaradıcılığını gənc nəslə və oxuculara tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi keçirilməsi məqsədə uyğundur. Sərgiyə müxtəlif başlıqlar verilə bilər. “Sevən şair, sevilən şair”, “Gülünü, çiçəyini sevdim, vətən”, “Qələmindən məhəbbət süzülən şair-Nüsrət Kəsəmənli”, “Ömür kitabında vərəqlər ağdı”, “Kölgəmi şəkillər aparacaqdı”, “Yayın bürküsü, payızın bölgüsü, qışın dadı, yazın dadı,  hamısı yazımdadı”. “Ölərəm yazmasam”, “Dayan bahar çağım”, “Qapamayın gözlərimi, amandır”, “Mənsiz qalacaqdır bu dünya bir gün”, “Dəli bir ağlamaq keçir könlümdən”, “Mənim bu şəhərdə kimim var, axı”, “Böyü bu torpaqla, bu yurdla öyün”, “Ayrılığın ağır yükü”. Şairin müxtəlif illərdə çəkilmiş foto stendi, bundan başqa N. Kəsəmənlinin kitabları sərgidə öz yerini alır. Şairin  müxtəlif dövrlərdə öz əsərləri ilə yanaşı müxtəlif ədiblərin şair haqqında yazdığı materiallar da sərgidə nümayiş olunur. Görkəmli insanların şair haqqında söylədikləri sitatlar və şeir parçaları da sərgidə verilir.















**Görkəmli şəxsiyyətlərin şair haqqında söylədikləri:**

Nüsrət Kəsəmənlinin ehtiraslı olduğu qədər də fədakar, emosianal, dəlicəsinə olduğu qədər də səmimi, təvazökar məhəbbəti (ümumən yaradıcılığı) Azərbaycan xalqının mənəvi sərvətidir.

Nizami Cəfərov,
*Professor.*

Nüsrət bu gün aramızda yoxdur və onun vaxtsız itkisi daim qəlbimizi incidəcək, ədəbiyyatımızda yeri həmişə görünəcəkdir.

Anar,
*Xalq yazıçısı*

O, mahnı mətnlərinin mahir yazıçısı kimi bizim sıralarimizda ləyaqətlə dururdu.

Nəriman Həsənzadə,
*Xalq şairi*

Nüsrət Kəsəmənli sevənlərin şairi idi. O, min illərin ədəbi məhəbbət mövzusuna bir canlılıq gətirdi.

Vaqif Yusifli,
*Filologiya elmlər doktoru*

Dostumuzun özü kimi yaradıcılığı da işıqlıdır. Nə qədər ki, Azərbaycan var, Nüsrətin də kədər qarışıq işıqlı təbəssümü dünyadadır.

Sabir Rüstəmxanlı,
*Xalq şairi*

Nüsrət Kəsəmənli müqəddəs oğul ömrü yaşadı. Çünki onun şairlik qisməti, uğuru da göydən ismarlanmışdı.

Səyavuş Sərxanlı,
*Şair*

Mahnı melodiyaları Nüsrət Kəsəmənlinin şeirlərinin birbaşa öz ruhundan doğulurdu.

Cabbar Musayev,
Bəstəkar

Nüsrət Kəsəmənlinin yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də, *"Biri vardı, biri yox"* adlı **şeir müsabiqəsi**dir. Kitabxanaçı ilk öncə şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. O, ilk olaraq Nüsrət Kəsəmənlinin həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından söhbət açır. Nəfis şəkildə nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır. Kitabxanaçı səhnəyə yaxınlaşaraq qonaqları salamlayır və şair haqqında qısa məlumat verir:

*Kitabxanaçı:* Nüsrət Kəsəmənli poeziyaya çox gənc yaşlarında böyük yaradıcılıq enerjisi və heyrətedici bir səmimiyyətlə gəldi. Əlbəttə, gənclikdə insanın istər həyatda, istərsə də sənətdə səmimi, ürəyiaçıq olması o qədər də böyük qəhrəmanlıq deyil; Nüsrət Kəsəmənlinin insan və sənətkar olaraq qəhrəmanlığı onda oldu ki, gənclik səmimiyyətini ömrünün sonuna qədər qoruya bildi. O, həyatın heç bir mərhələsində istedadından,

mənəvi enerjisindən diplomatik istifadə etmək xəyalına düşmədi. Dünyaya şair kimi gəldi, şair kimi getdi.

İlk olaraq birinci işrirakçı “Yarı məndə, yarı səndə” adlı şeiri qiraətli bir şəkildə deməyə başlayır.

İkimizdə bir ürək var,
Yarı  məndə, yarı səndə.
Sevgi adlı bir ağacıq,
Budaq məndə, narı səndə.

Çiçək ətri gül üzündə,
Min məna var hər sözündə.
Bir buluduq göy üzündə
Yağış məndə, dolu səndə.

Bir ovçuyam günüm ovda
Qaçhaqaçda, qovhaqovda,
Eşqimiz bir şirin sevda
Pətək səndə, balı məndə...

Ikinci iştirakçı “Qayıtma” adlı şeiri deməyə başlayır.

İndi ki, gedirsən son bahar kimi,
Qayıtma geriyə durnalar kimi,
Yaşa zirvələrdə, yaşa qar kimi,
Çevrilib yağışa, selə qayıtma.

İllərim nahaqdan ötdü səninlə,
Demirəm ömür-gün bitdi səninlə,
Getdin, nəğmələrim getdi səninlə,
İndi qəmli ötən telə qayıtma.

Sən gəldin ömrümə duman, çən kimi,
Yaşarsan saçıma düşən dən kimi.
Barı bundan belə yaşa mən kimi
Qoxlayıb atdığın gülə qayıtma.

Üçüncü iştirakçı “Bir nağıl gecəsi” adlı şeiri deməyə başlayır.

Bir sevinc fişəngi atılar göyə,
Göylər də nurlanar obalar kimi.
Yığıb ulduzları bulud heybəyə
Gələr şaxta baba babalar kimi...

Təqvimdə son yarpaq payıza düşər,
Dönər köhnə ilin son nidasına.
Bu gecə bir yaş da böyüyər bəşər,
Düşər əsrlərin daş yaddaşına.

Nəğməylə birləşər göyərçin əllər,
Şəfəq yağışında çimər baxışlar.
Əllər, yaylıq əllər, bir əlçim əllər
Saçlara gül-çiçək sığal baxışlar...

Dördüncü iştirakçı “Yaxşı ki...” adlı şeiri deməyə başlayır.

Ayrı yaşayırlar anamla atam,
Bir təzad ömr edib bu kainatda.
Onlara həm doğma, həm də ki, yadam,
Göz açıb nənəmi gördüm həyatda.

Beşiyim başında layla yananda
Bayatı hicranın dilində qaldı.
Ürəyim bir ata-ana yanında,
Əllərim nənəmin əlində qaldı.

Böyüdüm illəri mən çata-çata,
Sevinc bir yanadır, qəm bir yanadır.
Anamın sahibi bir ögey ata.
Atamın sahibi ögey anadır...

*Sonda münsiflər heyəti qiraəti ilə fərqlənən iştirakçıları mükafatlandırır.*

Nüsrət Kəsəmənlinin yubileyi ilə bağlı kitabxanada keçirilən tədbirlərdən biri də **"Biblioqrafik icmal"**dır. Kitabxanaçı biblioqrafik icmal keçirərkən oxuculara ədibin kitabları haqqında məlumat verir.

*Kitabxanaçı:* Nüsrət Kəsəmənlinin şeirləri o qədər isti, hərarətli, lirik qəhrəmanı o qədər özünəməxsus, hətta özüdür ki, heç bir tənqidçi-ədəbiyyatşünas həmin şeirlərə professional təmkin və soyuqluqla müdaxilə etmək, Nüsrət Kəsəmənli yaradıcılığının ruhunu incitmək istəmir. Gözəl şair, məhəbbət şairi Nüsrət Kəsəmənli ayrı-ayrı illərdə bir-birindən maraqlı, nəfis kitabları ilə oxucularını mükafatlandırmışdır. Gəncliyimizin təmiz məhəbbətindən, sədaqət və etibar kimi yüksək keyfiyyətlərindən yazan şair belə düşünür ki, məhəbbət insanın ən ali hissidir və bu mövzuda yazmaq həmişə gərəklidir. Şair şeirlərə, misralara tökülən qəlbinin hislərini oxucularla daim bölüşmüşdür.

Onun saf hislərlə dolu kitablarından biri də 1991-ci ildə işıq üzü görmüş "Hamısı sevgidəndir" kitabıdır.

Hamısı sevgidəndir-qəlbi Vətən eşqi ilə döyünənlərin, sevib-sevilənlərin, vüsalın sevincini, hicranın ağrısını duyanların, könül pıçıltılarını özlərindən başqa bir kimsəyə söyləməyənlərin, məhəbbətinin sehrli dünyasında çaşıb qalanların sevə-sevə oxuyacağı bir kitab olacağına inam dolu bir ümidimiz var. Şair Nüsrət Kəsəmənli bu kitabına oxucu sınağından çıxmış şeirlərini daxil edib...

N. Kəsəmənlinin 1995-ci ildə nəşr olunmuş "Kimə inanasan" kitabı da oxucular tərəfindən sevilən əsərlər toplusudur. Oxucuların, xüsusi ilə gənclərin sevimli şairi Nüsrət Kəsəmənlinin bu kitabında yer alan şeirləri şairin avtoqrafı ilə nəşr edilmişdir. Oxucular bu kitabı oxumaqla qəlbdən gələn bu lirik ovqatları, poetik nümunələri orijinaldan oxumaq imkanı əldə edirlər. Necə deyərlər, şair oxucularını bulağın başına gətirib. Ürəyi vətən, ana, yurd sevgisindən yananlar üçün, insana qarşı sevgi, məhəbbət bəsləyənlər üçün, ümümiyyətlə hər kəs üçün axıb bu bulaq...

2004-cü ildən Nüsrət Kəsəmənli daha bir nəfis kitabı ilə, "Seçilmiş əsərləri" ilə oxucuları tərəfindən bir daha sevildi. Dünyaya şair kimi gəlib, dünyadan şair kimi gedən N. Kəsəmənlinin sehirli söz aləmində oxucuları yumşaq, həlim və səmimiyyətlə qovuşuq ürəklərə axan işıqlı duyğular daim düşündürür. Poeziyamızın ənənəvi və yeni şeir formalarına istinad edərək həmişə maraqlı və orijinal lövhələr yaratmış şairin bu kitabında onun həyat, insan və cəmiyyət haqqında oxucu ilə səmimi, poetik söhbətləri toplanmışdır. Bu əsərlərində gənclik səmimiyyətini yaradıcılığı boyu qorumuş şairin mənəvi

dünyası bütün zənginliyi ilə görünür. Bu kitab ürəyi sevgiylə olanlar üçün, təbiəti, insanı, ən əsası da Vətəni sevənlər üçündü...

Sevgi şairi Nüsrət Kəsəmənlinin 2006-cı ildə oxucularla görüşə gələn "Qapamayın gözlərimi" kitabı qəlbi vətən eşqi ilə döyünənlərin, sevib-sevilənlərin, vüsalın sevincini, hicranın ağrısını duyanların könül pıçıltılarını özlərindən başqa kimsəyə söyləməyənlərin, məhəbbətin sehirli dünyasında çaşıb qalanların sevə-sevə oxuyacağı bir kitabdır. Kitabda şeirlərlə yanaşı bir neçə poema da yer almaqdadır. Poemalarda Təbriz həsrəti, Qarabağ ağrımız, şəhidlərimizin uca xatirəsi də vurğulanıb...

Elə həmin il çox sevilən şairin daha bir yeni "Heyif o sevgiyə" adlı kitabı işıq üzü görüb. Nüsrət Kəsəmənlinin şeirləri oxunan anda yadda qalır. Gənclərin sevgi macəraları, tərəddüd və etirafları, sevinc və kədəri N. Kəsəmənli şeirlərinin əsas mövzusudur. Bu kitabda olan şeirlərə yazılmış mahnılar sevə-sevə dinlənilir. Təsadüfü deyil ki, onun sözlərinə indiyədək 500-dən çox mahnı bəstələnmişdir. Nüsrət Kəsəmənlinin sizə təqdim olunan bu kitabında lirik şeirlərdən başqa son illərin içtimai-siyasi hadisələrinə həsr olunmuş "Xocalı", "20 yanvar", "Cıdır düzü", "İsa bulağı" kimi əsərləri də ayrıca bölmədə toplanmışdır. "Heyif o sevgiyə" kitabı sizin çoxdan intizarla gözlədiyiniz əsərlər məcmusudur.

Nüsrət Kəsəmənlinin 70-illik yubileyi ilə əlaqədar olaraq kitabxanada "*Rəngləri sevgiyə boyayan şair*" adlı sual-cavab gecəsi keçrilə bilər. Gecəyə yuxarı sinif şagirdləri, ədəbiyyat müəllimləri qatıla bilər. Kiabxanaçı şair və

onun əsərləri haqqında oxuculara məlumat verərək tədbirə başlayır.

*Kitabxanaçı:* Məhəbbət şairi, sevgi şairi dedikdə ilk öncə ağla gələn məhz Nüsrət Kəsəmənlidir. Bu haqda nə deyə bilərsiz?

İştirakçı: Şair bu adı elə-belə qazanmayıb. Yəni bu ad ona valideyinləri tərəfindən deyil, oxucular, Nüsrət sevərlər tərəfindən verilib. Ədəbiyyatda vətənpərvər şairlər, saray şairləri, mədhiyyə, nəzirə şairləri çox olub və olacaq. Elə Nüsrət Kəsəmənlini də vətənpərvər şair, hikmət şairi adlandırmaq olar. Lakin bununla yanaşı şairin qismətinə Füzuli, Vaqif kimi məhəbbət şairi olmaq düşüb. Bu şeirlər şairin tərcümeyi-halına, belə deyərdim ki, pasportuna, şairin həyatının bir parçasına çevrilmişdir.

*Kitabxanaçı:* Şairin gözü ilə baxsaq, sevgini necə görərik?

*I İştirakçı:* Məhəbbət fərdidir. Mənə elə gəlir ki, insanı başqa canlılardan fərqləndirən şüurla yanaşı, həm də məhəbbətdir. Şüur az da olsa, başqa canlılarda da var. Lakin məhəbbət birbaşa insani hisdir. Məhəbbət şüurla hissin vəhdətindən yaranır.

Mən ki, görməmişəm sevgini susan,
Məhəbbət zirvədə bəslənən qarmış.
Kim deyir bir dəfə sevilir insan,
Sən demə, hər dəfə sevmək olarmış...

*II iştirakçı:* Şairin şeirlərinin bir çoxu məhəbbətin tərənnümünə həsr olunub. Bəlkə də Nüsrət Kəsəmənli ruhunun daim gənc qalmasının sirri də budur. Onun ruhu heç zaman qocalmadı. İstərdim Nüsrət Kəsəmənlinin öz sözləri ilə deyim: “Mən məhəbbət qurtaran gün

öləcəyəm”... İnsan sevdiyi qədər insandır. Sevgi özünüdərk etmək deməkdir”.

*Kitabxanaçı:* Nüsrət Kəsəmənlinin poeziyasının özünəməxsus lirik çalarları var. Gizli bir həsrət yatır onun könül pəncərəsində. Bəzənsə bu həsrət ürkək-ürkək boylanır bizə şairin şeirlərindən. İsti bir sancıya dönüb axır şair qəlbindən qəlbimizə. Ən çox da Təbriz, Qarabağ, torpaq həsrəti qoxuyan şeirlərində bariz görünməkdədir bu nisgil. Misallar deyə bilərsinizmi?

*I iştirakçı:* Ay o taydan mənə baxan sərhədçi,
Görürsənmi sərhəd pozan o gülü?-
Gəl silahı yerə qoyaq bir anlıq
Təbiətə təslim olaq könüllü...

*II iştirakçı:* Arazın suları bayatı deyir,
Cəngidir, muğamdır səsi Kürün də.
Canından keçməyə irəli yüyür,
Torpaqdan keçməyə geri sürünmə.

*III İştirakçı:* İl ilə calanır, bu həsrət bitmir,
Qəmin aram olmur, kədərin itmir,
Elə hey axırsan, dərd axıb getmir,
Ağlama, ağlama, İsa bulağı.

Hanı çal-çağırlı illərin hanı?
Tac kimi taxdığın güllərin hanı?
Şirin nəğmə deyən dillərin hanı?
Ağlama, ağlama, İsa bulağı.

Yerəmi düşübsən mərd sözü kimi ?

Adın dilimizdə dərd sözü kimi,
Anasını gəzən bir quzu kimi
Ağlama, ağlama, İsa bulağı.

Üstünü quzğunlar alır, bilirəm,
Söyüdlər saçını yolur bilirəm,
Suların od tutub yanır, bilirəm,
Ağlama, ağlama, İsa bulağı.

Gördün başımıza gələn oyunu.
Bir gün alacaqdır hər kəs payını,
Hələlik zəhərə döndər suyunu
Ağlama, ağlama, İsa bulağı.

Bu dərdi qəlbimdə mən saxlayaram,
Qara saçlarımda dən saxlayaram.
Sənin əvəzinə mən ağlayaram,
Ağlama, ağlama, İsa bulağı.

Sən könül nəğməmsən, Şuşam baş tacım,
Səndə yuyulacaq hər ağrım, acım.
Suyunu buz kimi sərin tut, bacım,
Ağlama, ağlama, İsa bulağı.

Nüsrət Kəsəmənlinin 70-illik yubileyi ilə əlaqədar olaraq keçirilən maraqlı tədbirlərdən biri də Qarabağ mövzusunda “***Yaddan çıxmaz Qarabağ”*** adlı kompozisiyadır. Tədbirdə, tarix və ədəbiyyat müəllimləri, ədiblər, Qarabağ müharibəsinin iştirakçıları, məktəblilər və ümumilikdə oxucular cəlb olunur. Tədbirdə məktəblilər Nüsrət Kəsəmənlinin Qarabağa həsr etdiyi şeirlər

əsasında hazırladıqları kompozisiyanı tədbir iştirakçılarına təqdim edirlər. Səhnə müharibə şəraitini təsvir edən dekorasiyalarla bəzədilir. Oxucular milli ordumuzu təmsil edən geyimlərdə səhnəyə çıxırlar.

I iştirakçı: Azərbaycan torpağı.

Bir muğam harayıdır,
Bayatı sədasıdır.
Dağları baş qaldırır,
Buluda çatasıdır.
Özü boyda xalıdır.
Gözəllik adasıdır,
Min nemət çələngidir
Hər tarlası, hər bağı.
Bərəkət süfrəsidir
Azərbaycan torpağı...

II iştirakçı: Şuşa.

...Bir sükut bürüdü yenə hər yanı,
Qərib bir axşama büründü Şuşa.
Qacarın bir az da qaraldı qanı-
Bugünkü cəhdi də çıxmışdı boşa.

Əlinə düşsəydi bu el, bu oba,
Bir özü bilirdi neyləyərdi o,
Ona bəs etməzdi ölüm, xaraba...
Daşları saqqıztək çeynəyərdi o.

Aciz görünürdü əsgərlər ona,
Bir qala səddini keçə bilmirdi.
Qana susamışdı o qatil, qana,
Doldurub doyunca içə bilmirdi.

III iştirakçı: Qar yağır Şəhidlər xiyabanına

Qar yağır Şəhidlər xiyabanına
Qış uyuda bilmir bu oyaq qəmi,
Donub başdaşıtək bir dərdli ana,
Didilmiş gəlinlik paltarı kimi
Qar yağır Şəhidlər xiyabanına.

Yorğun əsgərlərin yuxusu dərin,
Son sözü: "Bir içim sərin su verin!"
Örtür yarasını qar şəhidlərin,
Qar yağır Şəhidlər xiyabanına.

Burda ağlayan kim, burda susan kim?
Bizlərdən məhəbbət umub, küsən kim,
Dən düşür torpağın saçına sanki,
Qar yağır Şəhidlər xiyabanına.

Nüsrət Kəsəmənlinin 70-illik yubileyi ilə əlaqədar olaraq keçirilən maraqlı tədbirlərdən biri də **ədəbi-bədii gecə**dir. ***"Səsim ünvan axtarır***" adlı ədəbi-bədii gecə keçirilir. Gecədə Azərbaycanın görkəmli ədibləri; şair və yazıçılar, sənət-söz adamları, bəstəkar və müğənnilər, oxucular, məktəblilər və ümumilikdə nüsrətsevərlər, sevgiyə, məhəbbətə dəyər verənlər toplaşır. Qonaqlar şairin

şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Gecənin əvvəlində tədbir iştirakçılarına Nüsrət Kəsəmənlinin həyat və yaradıcılığından bəhs edən slayd təqdim olunur. Sonra isə ədəbi-bədii gecəyə Namazəli Mehdiyevin şairin sözlərinə bəstələdiyi “Biri vardı, biri yox” adlı mahnı ilə start verilir. Gözəl ovqatdan sonra aparıcılar səhnəyə yaxınlaşır.

*I aparıcı:* Salam, dəyərli qonaqlar, N.Kəsəmənli sevərlər, şeirə vurğun oxucular, bu gözəl şeirli, nəğməli tədbirə xoş gəlmisiniz. Bu gün hamımız Nüsrət Kəsəmənlinin 70 illik yubileyi münasibətilə onun keçdiyi ömür yoluna işıq salmaq üçün, şairin söz ocağına, istisinə yığışmağa, N. Kəsəmənli zirvəsindən od götürməyə yığışmışıq. Çünki Azərbaycan torpağında Nüsrət Kəsəmənli zirvəsi var. Bu zirvədən günəş doğur.

*II aparıcı:* Nüsrət Kəsəmənli yaradıcılıqda heç kəsi təkrar etmir, öz ifadə tərzi, orijinal öz dəsti-xətti ilə fərqlənir. O, qiymətli poetik əsərlər müəllifi olmaqla yanaşı, maraqlı, cürətli məqalələrlə çıxış edən istedadlı publisist idi. Onun günümüzün vacib və aktual problemlərinə, ədəbi prosesə həsr olunmuş yazılarında da orijinal şair təxəyyülünün təsviri, şairin yaradıcılığında içtimai və şəxsi motivlər, həyat və ölüm haqqında düşüncələr önəmli yer tutur.

*I aparıcı:* Nüsrət Kəsəmənlini ilk növbədə sevgi şairi, məhəbbət nəğməkarı kimi deyənlər yanılmırlar. O da düzdür ki, gənclərimizin bütöv bir hissəsi Nüsrət poeziyası ilə nəfəs alıb, onun şeirlərində ifadə olunmuş duyğularla yaşayıb, eşq etiraflarını onun misralarıyla

edib, onun sözləri ilə məktublaşıbdır. Nüsrət Kəsəmənlinin poeziyasında eşqin, bütün dönüşləri, gedişləri, enişləri-yoxuşları, bütün çalarları, ovqatları sirayətedici obrazlarla ifadə olunmuşdur...

*II aparıcı:* Bir az qəribə səslənsə də, mənimlə razılaşarsınız ki, hər bir şairin harda adı çəkilir çəkilsin, həmin an onun ya bir məşhur misrası, ya bir bənd, ya da bütöv bir şeirin özü yada düşür. Nüsrət Kəsəmənlinin də adı çəkilən kimi yaddaşlarda aydınlaşan belə bir sadə, təbii, həm də məhəbbətin özü kimi ölməz misraları var:

Getmək istəyirsən... bəhanəsiz get,
Oyatma mürgülü xatirələri.
Səsin həmin səsdi, baxışın ögey,
Gedirsən, səsin də yad olsun barı.

*I aparıcı:* İndi bu şeir təkcə oxucuların deyil, eyni zamanda məşhur bir mahnı kimi də minlərlə, mən deyərdim ki, milyonlarla həsrətlərin, ayrılıqların yollarında bələdçilik eləyir... Bunlardan "Nə olar, Allahım, ayırma bizi", "Bağışla, ana", "Mənim göz yaşımı görməyəcəksən" və s. misal göstərmək olar.

Bir dəfə ürəkdən gülə bilmədim,
Könlümü kimsəyə verə bilmədim,
Səndən başqasını sevə bilmədim,
Heyif o sevgiyə, o məhəbbətə...

*II aparıcı:* Bir qəribə durna kimi üzüldü qatarlarımızdan Nüsrət Kəsəmənli. Gözəl şairimiz, sevimli, nəğməkar şairimiz. Millətimizin həqiqətən ürəkdən, təmənnasız, görksüz-filansız dərdçəkərlərindən biri. Dünya

ədalətlidirsə, növbə bizə qaldı yəqin. Söz taleyindir. Onun şeirlərinə nəzər salsaq, deyə bilərik ki, bu sadə, uğurlu-ürfanlı misralar onun poetik andı idi, ömür-gün məramı, həyat proqramı idi:

Bir ömrün möhnətini daşımağa nə var ki,
Ürəyində ağlayıb gülməyi bacarmasan.
Hamının əvəzinə yaşamağa nə var ki,
Hamının əvəzinə ölməyi bacarmasan?!

*I aparıcı:* Beləcə də yaşadı-sözünə, andına sadiq qalan insanlar kimi şair. Aliliyi odlarda yanmaqda görən pərvanələr kimi... Qısaca desək, əsl, anadangəlmə, bəzəksiz, pafossuz qəhrəman sayaq yaşadı Nüsrət Kəsəmənli! Onu gənclər də, yaşlılar da, mahnısevərlər də, oxucular, ədəbiyyatçılar da adətən, lirik-fəlsəfi məhəbbət şairi adlandırırlar. Nüsrət Kəsəmənli əsl, fitri ağrı şairidir! Şairin görünməmiş ucalıqda şair eyləyən Tanrı vergisi, tale qisməti olan ulu, əlahəzrət ağrı. Vətən, torpaq ağrısı, Ata-ana, ailə-övlad, müqəddəs köksoy ağrısı, axır ki, məhəbbət, vüsal ağrısı...

*II aparıcı:* Onun indiyəcən çap olunmuş kitablarında, dövrü qəzet-jurnal səhifələrində getmiş saysız-hesabsız şeirlərində, radio-televiziya dalğalarında səslənmiş fikir-düşüncə yüklü yazılarında olan yüzlərlə deyimlərdən yalnız bəzilərini sözümə qüvvət kimi gətirmək istərdim.

Ay o taylı,
ay bu taylı-
Götürüb bu laləni
Mən dərdimə sıxımmı?

“Sərhəddə lalə bitib”.

Sətirlər üstündə bir möhür kimi,
Körpə balaların əl şəkli gələr.
“Əsgərə məktub gəlib”.

Düşər əllərimdən məktubun yerə,
Qaldırar bənövşə ləçəklərində.
“Bahara deyərəm”.

*I aparıcı*: Nüsrət Kəsəmənli uzun illər “Bakı” qəzetinin populyar əməkdaş müəlliflərindən oldu. Televiziyada verilişlər apardı. Bir sözlə, lap gənc yaşlarından zəhmətkeşliyin qarmağına keçən, lakin kükrəyib daşan arzu-ümidləri isə dünyanı başına götürən bir türk oğuz gənci dolanmaq xatirinə hər cür mənəvi məhrumiyyətlərə dözsə də, erkən şöhrətin də qanadlarında uçdu. Nüsrət Kəsəmənli həqiqətən də, çox kədərlərə tuş gəlmişdi. Ağbirçək nənə himayəsində böyümüşdü.

*II aparıcı:* Getmək istəyirsən bəhanəsiz get... N. Kəsəmənli bizdən ayrılıb əbədiyyətə qovuşan zaman bir bəhanə söyləyib-söyləmədiyini deyə bilmərik, amma bir daha yazmayacaq və bizim heç vaxt unutmayacağımız o insanı misralar (onun başqa yüzlərcə şeirləri kimi) bizim müasir ədəbiyyatda onun lirik şair kimi qalmasına yardım edəcək...

*I aparıcı:* Şairin şeirində deyildiyi kimi “Oyatma mürgülü xatirələri” deyib həmişəyaşar şairi bu əbədi yuxusuna göz yumaraq susuruq və ya məcbur qalırıq... Tanrı vergisi istedadının gücü ilə tezliklə əlli milyondan çox böyük bir türk-oğuz dünyasının ən sevimli şairlərindən biri oldu. O, Vətənin, insan və təbiət gözəlliyinin, ulu məhəbbətin

şəhidi oldu. "Mən sağkən səninəm, ölsəm torpağın" deyərək şəhid oldu...

*II aparıcı:* İlahi! Bu necə xəbərdi gəldi,
Gəldi, ildırımtək Qazağa düşdü?!
Elə ki bir ömür yatdı, dincəldi,
Min ömür borana, sazağa düşdü.

Şeir yox, qəlbindən yük atdı, yazdı,
Ana torpağına kök atdı, yazdı.
Onun hər misrası çiçəkli yazdı.
Nəğmələri dilə-dodağa düşdü.

Çağladı ilhamı döndü gur çaya,
Nuru güzgü tutdu Günəşə, Aya,
Qazaxda bir uşaq gəldi dünyaya,
Bakıda bir şair torpağa düşdü...

Səyavuş Sərxanlı.

Ədəbiyyat siyahısı F.Köçərli adına RUK- nın biblioqrafiya şöbəsinin müdiri Sevil Əhmədovaya aiddir.

# ƏSƏRLƏRİ

## Kitablar

### Latın qrafikası ilə

Seçilmiş əsərləri : şeirlər. - Bakı : Şərq-Qərb, 2004 . - 256 s. - (Müasir Azərbaycan ədəbiyyatı). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

Heyf o sevgiyə... : şeirlər. - Bakı : Maarif, 2006. - 194 s.

Qapamayın gözlərimi : poeziya. - Bakı : Maarif, 2006. - 287 s.

### *Kitablarda(əlamətdar tarixlərə və mövzulara həsr olunmuş əsərlər)*

Ağlama, Təbrizim, ağlama : şeir // Qapamayın gözlərimi. - B. : Ozan, 2006. - S. 9-10.

Xocalı : şeir // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 247-249. ; Heyf o sevgiyə. - B. : Maarif, 2006. - S. 103-105.

Xocalı ; 20 Yanvar ; Qar yağır Şəhidlər xiyabanına... ; Cıdır düzü ; İsa bulağı : şeirlər // Azərbaycan harayı. - B. : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 108-116.

Vətən : şeir // Qapamayın gözlərimi. - B. : Maarif, 2006. - S. 3-4.

Vətən ; Torpaq haqqında nəğmə : şeirlər // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 373-376.

Vətən alov odunu sənin... : şeir // Qapamayın gözlərimi. - B. : Maarif, 2006. - S. 7-8.

Yaddan çıxmaz Qarabağ : poema // Qapamayın gözlərimi. - B. : Maarif, 2006. - S. 229-255.

***Kiril qrafikası ilə***

Hamısı sevgidəndir : şeirlər. - Bakı : Gənclik, 1991. - 296 s.

Kimə inanasan? : şeirlər. - Bakı : Gənclik, 1995. - 158 s.

Təklikdə danışaq : şeirlər və poemalar . - Bakı : Gənclik, 1983. - 192, [1] s.

Ürəyimə açılan qapılar : şeirlər və poemalar. - Bakı : Yazıçı, 1987. - 210, [6] s.

***Dövri mətbuatda***

Avtoportret ; Yumul, bənövşəm, yumul ; Etiraf və b. şeirlər // Ulduz. - 2010. - **N 3**. - S. 60-62.

Etiraf : şeir // Mədəni Həyat . - 2014. - № 6. - S. 95.

Xocalı // Azərbaycan. - 2012. - 26 fevral. - № 46. - S. 10.

Neyləyim?. : şeir // Mədəni həyat. - 2012. - № 10. - S. 91.

Qar yağır şəhidlər xiyabanına : şeir // Yeni Azərbaycan. - 2012. - 29 dekabr. - № 241. - S. 8.

Vətən // Göy qurşağı. - 2013. - № 5. - S. 3.

## HAQQINDA

***Dövri mətbuatda***

Anar. Sevgisiz zamanın sevgi Şairi : Nüsrət Kəsəmənli - 60 // Ədəbiyyat qəzeti. - 2006. - 29 dekabr. - S.4.

Gülayə. Hələ də isti yağışlar yağır... : şair Nüsrət Kəsəmənlinin yaradıcılığı haqqında // Kaspi. - 2013. - 14 dekabr. - № 239. - S. 24.

Həmidova Z. Biri vardı, biri yox... : şair Nüsrət Kəsəmənli haqqında //
Mədəniyyət. - 2014. - 28 fevral. - № 16. - S. 12.

Xəlilzadə F. "Hara gedirsən, qaranquşum?" : Esse // Azərbaycan. - 2007. - 11 yanvar. - S.5.

Kamal R. Nüsrət Kəsəmənlinin nağılları // Ədəbiyyat qəzeti. - 2015. - 19 sentyabr. - № 51. - S. 24.

Kəsəmənli R. "Bir sevda ağlayır içimdə mənim" // Yeni Mədəni-maarif jurnalı. - 2008. - № 10. - S. 57-64.

Mehdiyeva F. Nüsrət Kəsəmənli : Məhəbbət şairi, tale yolçusu // Ulduz. - 2010. - N 3. - S. 57-59.

Mehralıyev S. Yaşayıram ikimizin yerinə... // El. - 2012. - № 11. - S. 4-15.

Rüstəmxanlı S. Yığıblar üzümüzü : Çingiz Əlıoğlu və Nüsrət Kəsəmənliyə // Seçilmiş əsərləri. - B. : Şərq-Qərb, 2004. - S. 102-103.

Səməd M. Nüsrət Kəsəmənli olduğu kimi // Ədəbiyyat qəzeti. - 2007. - 31 avqust. - S.5.

## ***NÜSRƏT KƏSƏMƏNLİNİN SÖZLƏRİNƏ BƏSTƏLƏNMİŞ MAHNILAR***

Barışmadıq nədən oldu / bəst. Z.Xanlarova // Babayev R. Min bir mahnı. – B.: Min bir mahnı, 2007. – S. 74.

Belə ayrılmayaydıq / bəst. Ə. Ələkbərova // Babayev R. Min bir mahnı. – B.: Min bir mahnı, 2007. – S.79.

Çiçəklər sevinsin / bəst. T.Əhmədov // Babayev R. Min bir mahnı. – B.: Min bir mahnı, 2007. – S.124.

Haradan biləsən / bəst. İ.Kərimov // Babayev R. Min bir mahnı. – B.: Min bir mahnı, 2007. – S.235.

Hələ bu harasıdır / bəst. D. Həkimova // Babayev R. Min bir mahnı. – B.: Min bir mahnı, 2007. – S.241-242.

İkimizin yerinə / bəst. Ə.Ələkbərova // Babayev R. Min bir mahnı. – B.: Min bir mahnı, 2007. – S. 260.

Küsdürsün məni / bəst. Ş.Əliyeva // Babayev R. Min bir mahnı. – B.: Min bir mahnı, 2007. – S.287-288.

Qərib-qərib axşamlar / bəst. Ə.Ələkbərova // Babayev R. Min bir mahnı. – B.: Min bir mahnı, 2007. – S.306.

Mənim tək sevənin / bəst. C. Musayeev // Babayev R. Min bir mahnı. – B.: Min bir mahnı, 2007. – S. 355-356.

Onu bilmirəm / bəst.  İ.Kərimov // Babayev R. Min bir mahnı. – B.: Min bir mahnı, 2007. – S.402.

Sənsiz / bəst. Ə.Ələkbərova // Babayev R. Min bir mahnı. – B.: Min bir mahnı, 2007. – S.471-472.

Ümid günəşi / bəst. T.Əhmədov // Babayev R. Min bir mahnı. – B.: Min bir mahnı, 2007. – S.523.

Ürəyimlə bacarmıram / bəst. V.Qurbanov // Babayev R. Min bir mahnı. – B.: Min bir mahnı, 2007. – S.526.

Vətən bayatıları / bəst. T.Əkbər // Babayev R. Min bir mahnı. – B.: Min bir mahnı, 2007. – S.532.

Yumul bənövşəm // bəst. Babayev R. Min bir mahnı. – B.: Min bir mahnı, 2007. – S.566.

Zəfəran / bəst. O.Rəcəbov // Babayev R. Min bir mahnı. – B.: Min bir mahnı, 2007. – S.568.

Nüsrət Kəsəmənlinin 70 illik yubileyi münasibəti ilə hazırlanmış metodik vəsait

Kompyuter yığımı və
dizayn: Aynurə Əliyeva

Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;
E-mail: childlibbaku@yahoo.com
URL:www.clb.az

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:
Çapa imzalanmışdır:
Tirajı:
Pulsuz